MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 5, № 1, 2025*

**İQTİSAD ELMLƏRİ BÖLMƏSİ**

UOT 332.122; 316.33

# REGİONUN SOSİAL SFERASININ İNVESTİSİYA TƏMİNATI SİSTEMİNİN FORMALAŞDIRILMASININ YENİ METODOLOGİYASI

[1]**Anar Nazim oğlu Eminov,** [2]**Emin Vaqif oğlu Abiyev**
[1]iqtisad üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
anar.eminov@mdu.edu.az

[2]Azərbaycan Texniki Universiteti
emin.abiyev@aztu.edu.az
**https://doi.org/10.30546/SJSD.2025.5.1.002**

***Xülasə:*** *Bu məqalənin məqsədi regionların sosial sferasına investisiyaların təminatı sisteminin yeni metodologiyasının araşdırılmasıdır. Burada müəlliflər tərəfindən sosial investisiyaların iqtisadi inkişaf və əhalinin rifah səviyyəsinin yüksəldilməsi üçün vacib olduğu vurğulanır. Məqalədə sosial sferada investisiyaların idarə olunması üçün yeni və vacib modellər və metodlar təqdim olunur, xüsusilə parametrik və dinamik modellərin qurulması əhatəli təhlil edilir.*

*Məqalədə sosial sferanın investisiya təminatı sisteminin formalaşdırılması və inkişafı üçün müxtəlif nüanslar nəzərdən keçirilir. Qeyd etməliyik ki, dövlətin iqtisadi siyasəti, makroiqtisadi inkişaf göstəriciləri, özəl sektorun iştirak səviyyəsi bu prosesdə həlledici rol oynayır. Onu da vurğulamalıyıq ki, regionların sosial sferasına investisiya qoyuluşunun sistemli və məqsədyönlü aparılması üçün təqdim olunan yeni metodoloji yanaşmalar bu sahədə mövcud problemlərin həllinə yönəldilib.*

*Məqalədə əsas mövzular arasında investisiyaların optimallaşdırılması, dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi və monitorinq sistemlərinin qurulması mühüm yer alır. Tədqiqat nəticəsində sosial investisiya siyasətinin effektiv həyata keçirilməsi üçün innovativ yanaşmaların və strateji idarəetmə metodlarının vacibliyi vurğulanır. Nəticə olaraq göstərmişik ki , dövlətin dəstəyi, vergi güzəştləri və rəqəmsal texnologiyaların tətbiqi bu prosesdə mühüm rol oynaya bilər.*

*Məqalənin sonunda regionların sosial inkişafına yönəlmiş investisiyaların artırılması və səmərəliliyinin yüksəldilməsi üçün konkret tövsiyələr təqdim olunur.*

***Açar sözlər:*** *region, sosial sfera, investisiya təminatı sistemi, parametrik model*

## Giriş

Hazırda, bazar iqtisadiyyatı şəraitində sosial sferada investisiya siyasətinin formalaşdırılması və effektiv idarə olunması regionların sosial-iqtisadi inkişafının əsas istiqamətlərindən birini təşkil edir [1, 2]. Bu investisiyalar təkcə iqtisadi artımı stimullaşdırmır, eyni zamanda əhalinin rifah səviyyəsini yüksəltmək və sosial infrastrukturun dayanıqlılığını təmin etmək üçün olduqca vacibdir [3, 4]. Qeyd edil-məlidir ki, sosial sferada investisiya fəaliyyətinin səmərəliliyini təmin etmək üçün yeni yanaşmalara və innovativ mexanizmlərə ehtiyac duyulur [5, 6].

Azərbaycan Respublikasında regionların sosial sferasına investisiyaların cəlb edilməsi və idarə olunması prosesində müxtəlif amillər mühüm rol oynayır. Dövlətin iqtisadi siyasəti, makroiqtisadi inkişaf, özəl sektorun yaxından cəlbi və sosial sifarişlərin icrası kimi faktorlar, investisiya fəaliyyətinin uğurlu həyata keçirilməsində həlledici rol oynayır [2, 7]. Bu baxımdan, regionların sosial sahəsinə investisiya qoyuluşunun sistemli və məqsədyönlü aparılması üçün yeni metodoloji yanaş-maların işlənib hazırlanması olduqca vacibdir.

Bu məqalədə Azərbaycan Respublikasında regionların sosial sferasının investisiya təminatı sisteminin formalaşdırılması üçün yeni metodologiyalar və modellər araşdırılmış və təhlil olunmuş-dur. Əsas diqqət, sosial sferada investisiya proseslərinin optimallaşdırılması, investisiya fəaliyyə-

tinin səmərəliliyinin artırılması və monitorinq sistemlərinin qurulması məsələlərinə yönəldilmişdir [10, 11]. Eyni zamanda, sosial investisiya siyasətinin inkişafı üçün tətbiq edilə biləcək səmərəli həll yolları və dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi imkanları təhlil edilmişdir [12, 13].

Tədqiqat, sosial sahədə investisiya proseslərinin effektiv idarə olunmasını təmin etmək üçün kompleks yanaşmanı nəzərdən keçirərək, sosial rifahın artırılması və dayanıqlı inkişafın dəstəklənməsi üçün elmi əsaslandırılmış tövsiyələr təqdim edir [14, 15].

Məqalədə hər hansı regionun sosial sferasının investisiya təminatı sisteminin formalaşdırılmasının yeni metodologiyaları və modelləri təhlil olunmuşdur. Burada regionun sosial sferasının investisiya təminatı sisteminin parametrik modelinin sxemi, regionun sosial sferasına investisiyaların yatırılması sisteminin dinamik modelinin sxemi təsvir olunmuş, regionun sosial sferasının investisiya təminatı sisteminin fəaliyyət göstərməsi monitorinqinin çoxsəviyyəli sistemi və regionun sosial sferasının investisiya təminatı sisteminin fəaliyyətinin optimallaşdırılması prosesləri təhlil olunmuşdur.

**Regionun sosial sferasının investisiya təminatı sisteminin formalaşdırılmasının yeni metodologiyası**

Respublika iqtisadiyyatının transformasiyası şəraitində sosial sferada bazar münasibətlərinin reallaşdırılması ilə bağlı imkanlar hakimiyyət strukturları tərəfindən bu sferada dövlət investisiya siyasətinin yaradılması zəruriliyinin nə dərəcədə dərk olunmasından asılıdır. Metodologiyalara detallı baxaq:

Regionun sosial sferasının investisiya təminatı sisteminin effektivliyinin məqsədli $F$ funksiyası aşağıdakıları ehtiva edir: $\{A_i\}$ idarə olunan daxili amillər qrupunu, $\{B_j\}$ idarə olunmayan xarici makroiqtisadi amillər qrupunu və $\{C_t\}$ qismən idarə olunan xarici makroiqtisadi amillər qrupunu [16]. Bununla yanaşı, sadaladığımız qrupların amillərinin hər birində faydalı (“siqnal”) $s$ tərkib hissəsi və $n$ “gurultulu” (maneçilik törədən) tərkib hissəsi seçilir. Məqsədli funksiya belə bir qaydada ifadə olunur ki, “siqnal/gurultu” nisbəti vasitəsilə verilmiş $\Delta T$ dövründə iqtisadi effektivliyin maksimumu təmin edilməli, həmin maksimum isə $\{P_\lambda\}$ maliyyə daxilolmalar axını vasitəsilə qiymətləndirilir, bu zaman $\{I_g\}$ investisiyaların $\{A_i\}$ tamamilə idarə olunan daxili amillərə (və $\{\Delta A_{is}\}$ dəyişikliklərin nail olunmasına), habelə qismən idarə olunan xarici amillərə (və $\{\Delta C_{ts}\}$ dəyişikliklərin nail olunmasına) təsiri vasitəsilə həyata keçirilir [17]:

$$F\big(\{A_i\},\{B_j\},\{C_t\},\{P_k\},\{I_g\}\big) = \frac{\varphi\big(\{A_{is}\},\{B_{js}\},\{C_{ts}\},\{P_k\}\big)}{\omega\big(\{A_{in}\},\{B_{jn}\},\{C_{tn}\},\{I_g\}\big)} \xrightarrow{\Delta T} max.$$

Regionun sosial sferasının investisiya təminatı sisteminin parametrik modelinin formalaşdırılmasına regionun sosial sferasının investisiya təminatı sisteminin effektivliyinin işlənib hazırlanmış məqsədli funksiyası daxil edilməlidir.

Regionun sosial sferasının investisiya təminatı sisteminin parametrik modelinin işlənib hazırlanmış sxemi şək. 1-də göstərimişdir. Təqdim olunmuş parametrik modeldə $X$ parametrlərin çoxluğu $\{x_1, x_2, ..., x_n\}$ bazar tələbatları çeşidindən ibarətdir və həmin çeşidi sosial sfera irəliləmə obyektləri (sosial sifariş) qismində nəzərdən keçirir və özünün sifarişlər (layihələr) portfelinə daxil edir.

$X^*$ çoxluğu regionun sosial sferanın ($x^*_1, x^*_2, ..., x^*_n$) sifarişlər portfelinə daxil edilmiş məhsulun irəli çəkilməsinin nəticələrini ifadə edir və sosial sfera tərəfindən təklif olunan ictimai gözləntilər fəaliyyətinin məhsulu ilə məmnuniyyət dərəcəsini əks etdirir.

$X^*$ çoxluğunun $X$: $X^* \sim X$ çoxluğuna oxşarlıq dərəcəsi faktiki olaraq, bazar tələbinin ödənilməsi nöqteyi-nəzərdən regionun sosial sferasının fəaliyyət effektivliyini əks etdirir.

$Y$ çoxluğu ($y_1, y_2, ..., y_m$) modullar çeşidi vasitəsilə regionun sosial sferasının tərkibini və funksional imkanlarını əks etdirir.

$Y(y_1, y_2, ..., y_m)$ sosial sferanın modullar çoxluğunda $\{A_i\}$ idarə olunan daxili amillər qrupu seçilir. Həmin qrup daxilində $\{A_{is}\}$ “siqnal” və $\{A_{in}\}$ “gurultulu” amillər altqrupları seçilir.




**Şək. 1.** Regionun sosial sferasının investisiya təminatı sisteminin parametrik modeli

Növbəti addımda $\{A_i\}$ idarə olunan daxili amillər qrupunda yeni "siqnal" amilləri generasiya edən, yaxud mövcud olan $\{A_{in}\}$ "siqnal" amilləri stimullaşdıran, eləcə də "gurultulu" amillərin yatırılmasına (susdurulmasına) səbəb olan $\{A_{isq}\}$ innovasiya amillərin altqrupu seçilir.

$\{A_{isq}\}$ səmərəli innovativ amillər çoxluğunun seçilməsi əsasında $y_1$ regionun sosial sferasının investisiya təminatının idarə olunması modulunda effektivliyin məqsədli funksiyası əsasında (5) investisiya təminatı sistemi formalaşır ki, burada həmçinin $\{I_{gw}\}$ investisiyaların xarici və $\{I_{gv}\}$ daxili axın mənbələri də yaranır.

Nəzərdən keçirilən $\Delta T$ zaman intervalında regionun sosial sferasının strateji inkişaf planlarının nəzərə alınması ilə $X(x_1, x_2, ..., x_d)$ şərti bazar sifarişi əsasında $Y_x(y_{x1}, y_{x2}, ..., y_{xm})$ nizamlanma parametrlər qrupu formalaşır. Həmin qrup konkret layihələrin (üzərinə götürülmüş tapşırıqların) $(x_1, x_2, ..., x_n)$ yerinə yetirilməsindən əvvəl regionun sosial sferasını transformasiya edir. Qeyd edək ki, portfeldə yer alan hər bir n sifarişi üçün $(y_{x1}, y_{x2}, ..., y_{xm})$ regionun sosial sferasının $m$ funksional modulların sifarişinin hər birindən altnizamlanma imkanlarını əks etdirir. Bu kimi strateji məsələlərin öz həllini tapması üçün $\{A_{isq}\}$ daxili "siqnal" innovasiya amillərinin generasiyası və idarə edilməsi vasitəsilə $y_1$ regionun sosial sferasının investisiya təminatının idarə edilməsi modulunda investisiyalar həcmi formalaşır ki, o, $\{I_{gw}\}$ cəlb olunan investisiyaların xarici axını ilə əhəmiyyətli dərəcədə müəyyən olunur.

İnnovasiyaların həyata keçirilməsi prosesi $X^*$ faktiki surətdə əldə olunan nəticələrin $X$ gözlənilən nəticələrdən kənarlaşmanı nümayiş etdirir. Faktiki nəticələrin gözlənilən nəticələrdən

mənfi kənarlaşmanın aradan qaldırılması məqsədilə $Y(y_1, y_2, ..., y_m)$ regionun sosial sferası modelinin idarəetmə parametrləri $W_x(w_{x1}, w_{x2}, ..., w_{xm})$ vasitəsilə $X(x_1, x_2, ..., x_d)$ tapşırıqlar çoxluğunun yerinə yetirilməsi prosesində tənzimlənir. Bu kimi taktiki məsələlərin generasiya və $\{A_{isq}\}$ daxili "siqnal" innovasiya amillərinin idarə olunması vasitəsilə həll edilməsi üçün $y_1$ regionun sosial sferasında investisiya təminatının idarə edilməsi modulunda investisiyalar həcmi formalaşır ki, o, $\{I_{gv}\}$ investisiyaların daxili axını ilə əhəmiyyətli dərəcədə müəyyən olunur. Bu zaman taktiki və strateji məsələlərin formalaşdırılması və korrektə edilməsi indikatoru qismində $\{I_b\}$ investisiyaların qaytarılması axını çıxış edir.

Beləliklə, verilən sifarişlərin təsbit olunmuş $X$ çoxluğu və $Y_x$, $W_x$ sazlanma və idarəetmə parametrlərin məlum çoxluğu üçün parametrik məsələdə $Y$ regionun sosial sferası modelinin optimal parametrləri müəyyən edilir:

$$F^*(X, Y, Y_x, W_x, B, C, A, I) = \text{extr}\, F(X, Y, Y_x, W_x, B, C, A, I)$$
$$Y \in \{Y\},$$
$$X = \text{const},$$
$$Y_x = \text{const},$$
$$W_x = \text{fix},$$
$$B - \text{var},$$
$$C - \text{var},$$
$$A - \text{var},$$
$$I - \text{var}.$$

Funksionalların bu məsələsində $X$ = const, $Y_x$ = const, $W_x$= fix şərtlərinin gücü dəyişənlər funksiyasından ibarətdir; $Y$, $B$, $C$, $A$, $I$, burada $Y$, $A$ və $I$ idarə olunan, axtarılan dəyişənlərdir, ilkin məsələ isə qeyri-xətti proqramlaşdırma məsələsinə transformasiya olunur. Bu zaman (6)-dan belə bir nəticə hasil olunur ki, regionun yaradılan sosial sferası modelinin zahiri görünüşü ekstremum prinsipi üzrə $\{Y\}$ mümkün variantlar çoxluğundan seçilir ((5) məqsədli funksiyaya uyğun olaraq – effektivliyin maksimumu).

Regionun sosial sferasının investisiya təminatı sisteminin formalaşdırılması metodologiyasının işlənib hazırlanmasının məntiqi davamı regionun sosial sferasının investisiya sisteminin dinamik modelinin formalaşdırılması kimi nəzərdən keçirilir (şək. 2).

Dinamik modelləşmə $X^*$ nəticəsinin oxşarının qiymətləndirilməsi üzrə $X$ gözləntisinə $Y$ $(y_1, y_2, ..., y_m)$ regionun sosial sferası modulların təsbit olunmuş tərkibi şəraitində regionun sosial sferası modelinin $Y_x$ sazlanması və $W_x$ idarəetməsi qiymətləndirilmənin nəticələri üzrə korrektələrlə bağlıdır.

$$F^*(X, Y, Y_x, W_x, B, C, A, I) = \text{extr}\, F(X, Y, Y_x, W_x, B, C, A, I).$$
$$Y = \text{const},$$
$$X = \text{const},$$
$$Y_x \in \{Y_x\},$$
$$W_x \in \{Y_x\},$$
$$B - \text{var},$$
$$C - \text{var},$$
$$A - \text{var},$$
$$I - \text{var}.$$

Bu məsələdə $F$ funksionalı $X$ = const, $Y$ = const şərtlərinin qüvvədə olması səbəbindən $Y_X$,.$W_X$, $B$, $C$, $A$, $I$ dəyişənlərin funksiyasından ibarətdir, burada $Y_x$, $W_x$, $A$ və $I$ idarə olunan axtarılan dəyişənlərdir, məsələnin özü də həmçinin qeyri-xətti proqramlaşdırma məsələsinə transformasiya olunur. Dinamik modeldə $Y$ zahiri görünüşü ilə regionun sosial sferası modelinin $Y_x$ sazlanma və $W_x$ idarəetmə parametrləri $F$ funksiyasının ekstremumu prinsipi üzrə seçilir (məqsədli funksiyasına uyğun olaraq – effektivliyin maksimumu). Seçim $X$ tapşırıqlar çoxluğunun yerinə yetirilməsinə qədər $Y$ regionun sosial sferasının $\{Y_x\}$ investisiya sazlanmasının mümkün variantının çoxluğundan və $X$ tapşırıqlar çoxluğunun yerinə yetirilməsi prosesində $Y$ regionun sosial sferasının $\{W_x\}$ investisiya tənzimlənməsinə müvafiq olaraq yerinə yetirilir.




**Şək. 2.** Regionun sosial sferasına investisiyaların yatırılması sisteminin dinamik modelinin sxemi

Uyğun olaraq, regionun sosial sferasının investisiya təminatı sisteminin dinamik modelləşməsi prosesini təsvir edək. Birinci mərhələdə {$B_{js}$, $B_{jn}$}, {$G_{is}$, $G_{in}$} (blok 1) xarici mühit parametrlərin təhlili əsasında $X(x_1, x_2, ..., x_d)$ (blok 2) regionun sosial sferasının sosial sifarişlər (sifarişlər portfelinin) çoxluğu müəyyən edilir. Daha sonra $X(x_1, x_2, ..., x_d)$ sifarişlərin seçilmiş portfelinə uyğun $Y(y_1, y_2, ..., y_m)$ (blok 3) regionun sosial sferası formalaşır ki, burada {$A_{is}$, $A_{in}$) (blok 6) daxili idarə olunan amillər qrupunun müəyyənləşdirilməsi əsasında $Y$ (blok 3) regionun sosial sferası modelinin korrektə edilməsi və onun təkmilləşdirilməsi yerinə yetirilir. Qeyd edək ki, təkmilləşdirmə prosesi regionun sosial sferasının investisiya təminatının idarə olunması modulunda qiymətləndirilən {$I_{gv}$, $I_{gw}$} investisiya təminatına olan tələbləri müəyyənləşdirən {$A_{isq}$} idarə olunan investisiya amillərin altqrupu vasitəsilə həyata keçirilir (blok 7). $Y(y1,y2, ..., y_{xm})$ (blok3) regionun sosial sferanın formalaşdırılmış modeli əsasında {$B_{js}$, $B_{jn}$}, {$C_{ts}$, $C_{tn}$} (blok 1) xarici mühit parametrlərinin mümkün dinamikasının və {$A_{isq}$} (blok 6) daxili amillərin idarə olunması imkanlarının, eləcə də {$I_{gv}$, $I_{gw}$) (blok 7) məqsədəuyğun investisiya təminatı hesabına $Y_x(y_{x1}, y_{x2}, ..., y_{xm})$ və $W_x(w_{x1}, w_{x2}, ..., w_{xm})$ (blok 4) regionun sosial sfera modelinin sazlanması və idarə olunması parametrləri müəyyən edilir. Regionun sosial sferası modelinin səmərəli variantının yaradılması məqsədilə (6) və (7) məsələləri birgə həll etmək lazımdır ki, (5) meyarı üzrə regionun sosial sferanın imkanları ilə sahənin innovativ proseslərinin intensivləşdirilməsini təmin edən investisiyaların yatırılması sisteminin tətbiq olunması yolu ilə bazar tələbatları birləşdirməklə ekstremumu tapmaq mümkün olsun. İterasional prosedurlar çərçivəsində (6) və (7) məsələlərin dəfələrlə birgə həllinin yerinə yetirilməsi zəruriliyi o deməkdir ki, regionun sosial sferası modeli (blok 3) sazlanma və idarəetmə parametrlərin əldə olunan qiymətlər sahəsinin nəzərə alınması ilə (blok 4) korrektə ediləcək. Əksinə, blok 4-ün parametrləri blok 3-ün parametrlərinin transformasiyaya uğraması nəticələrinə əsasən korrektə ediləcək. Bu zaman innovasiya amilləri (blok 6) və investisiya imkanları (blok 7) nəzərə alınmalıdır.

Regionun sosial sferası modelinin fəaliyyətinin nəticələrinə əsasən $\Delta T$ zaman kəsiyində $X^*(x^*_1, x^*_2, ..., x^*_d)$ (blok 5) şərti bazar sifarişinin yerinə yetirilməsi prosesinin qiymətləndirilməsi həyata keçirilir. Əldə olunmuş nəticələrin nəzərə alınması şərtilə $X$ sifarişlər portfelinin korrektə edilməsi (blok 2) həyata keçirilir ki, bu zaman bir çox cəhətdən $\{I_b\}$ investisiyaların qaytarılması xarakteri ilə müəyyənləşdirilən $y_1$ (blok 7) regionun sosial sferasının investisiya təminatının nəzərə alınması $\{A_{isq}\}$ (blok 6) gələcək innovativ inkişafın həyata keçirilməsini tələb edir.

Regionun sosial sferasının investisiya təminatı sisteminin mürəkkəbliyinin nəzərə alınması ilə təqdim olunan elmi işdə monitorinqin çoxsəviyyəli sxemi təklif edilmişdir. Bu dəyərləndirmə çərçivəsində çoxsəviyyəli monitorinq anlayışı o deməkdir ki, regionuun sosial sferasının investisiya təminatı sisteminin fəaliyyət göstərməsi prosesinin müşahidə olunması bir neçə səviyyədə aparılır və $\{I_{gv}\}$, $\{I_{gw}\}$, $\{I_b\}$ müxtəlif növ investisiya resurslarının cəlb edilməsi zamanı $\{A_{isq}\}$ innovasiyaların tətbiqi əsasında $Y(y_1, y_2, ..., y_m)$, $Y_x(y_{x1}, y_{x2}, ..., y_{xm})$ və $W_x(w_{x1}, w_{x2}, ..., w_{xm})$ dəyişənlər qruplarının transformasiyası vasitəsilə $\{B_{js}, B_{jn}\}$, $\{C_{ts}, C_{tn}\}$ xarici mühitin parametrlərində baş verən dəyişikliklərə (formalaşdırılmış $X(x_1, x_2, ..., x_d)$ sifarişlər protfeli çərçivəsində) $\{A_{is}, A_m\}$ regionun sosial sferasının zəmanəti verilən və vaxtlı-vaxtında uyğunlaşdırılması məqsədilə yerinə yetirilir.

Beləliklə, dəyərləndirdiyimiz halda 4-səviyyəli sxem üzrə təhlil edilən monitorinq obyektlərinin dörd qrupu seçilir (Cədvəl 1).

**Cədvəl 1**

**Regionun sosial sferasının investisiya təminatı sisteminin fəaliyyət göstərməsi monitorinqinin çoxsəviyyəli sistemi**

| **Monitorinq qrupu** | **Regional sosial sferanın fəaliyyətinə təsir göstərən amillər** | **Regionun sosial sferanın bazar sifarişləri** | **Regionun sosial sferanın parametrləri** | **Regionun sosial sferasının investisiya təminatı** |
|---|---|---|---|---|
| 1-ci səviyyə | İdarə edilməyən xarici makroiqtisadi amillərin qrupu $\{B_{js}, B_{jn})$ | Regionun sosial sferası üçün bazar sifarişlərinin çoxluğunun dinamikası $X(x_1, x_2, ..., x_d)$ | Regionun sosial sferasının modullarının fəaliyyətinin qiymətləndirilməsi | Regionun sosial sferasının $I$ investisiyaların ümumi tələbatlarının təyin edilməsi |
| 2-ci səviyyə | Elastik idarə olunan xarici makroiqtisadi amillərin qrupu $(C_{is}, C_{in})$ | Bazar sifarişləri çoxluğunun yerinə yetirilməsinin qiymətləndirilməsi $X^*(x^*_1, x^*_2, ..., x^*_d)$ | Regionun sosial sferasının nizamlanma parametrlərinin qiymətləndirilməsi | Daxili $\{I_{gv}\}$və xarici $\{I_{gw}\}$ investisiya axınlarının monitorinqi |
| 3-cü səviyyə | İdarə olunan daxili $\{A_{is}, A_{in}\}$ amillərin qrupu | $X^*$ sifarişlər çoxluğunun $X$ bazar gözləntilərinə yerinə yetirilməsi uyğunluğu dərəcəsinin qiymətləndirilməsi | Regionun sosial sferasının idarəetmə parametrlərinin qiymətləndirilməsi $W_x(w_{x1}, w_{x2}, ..., w_{xm})$ | $\{I_b\}$ investisiyaların qaytarılması monitorinqi |

| | | | | |
|---|---|---|---|---|
| 4-cü səviyyə | $\{A_{isq}\}$ innovasiya amillərinin $\{A_{is}, A_{in}\}$ və $\{C_{is}, C_{in}\}$ qruplarının “siqnal” və “səs” tərkib hissələrinin dəyişməsinə təsiri | İnnovasiyalara $I$ investisiyaların $X$ sifarişlərinin razılaşdırılmasının pozulmaların azaldılmasına və onların $X^*$ yerinə yetirilməsinə təsiri | İnnovasiyalara $I$ investisiyaların regionun sosial sferasının parametrlərinin təkmilləşdirilməsinə təsirinin qiymətləndirilməsi – $Y$, $Y_x$, $W_x$ çoxluqların. | Regionun sosial sferasına $I$ investisiyaların $\Delta X$ sifarişlərin həcminin (bazar payının) artırılmasına təsirinin qiymətləndirilməsi |

Regionun sosial sferasının investisiya təminatı sisteminin fəaliyyət göstərməsi monitorinqinin təşkil edilməsinin metodologiyası nöqteyi-nəzərdən monitorinqin hər bir səviyyəsində və hər bir qrupunda tədqiqat obyektinin nədən ibarət olduğu haqqında suallara cavab axtarmaqdan əlavə, aşağıdakıları müəyyən etmək lazımdır:

- monitorinq hansı alətlər vasitəsilə həyata keçirilməlidir?
- hər bir səviyyədə və hər bir qrupda parametrlərin yol verilən kənarlaşmalarını necə müəyyən etmək olar?
- monitorinq sisteminin özünün fəaliyyət sabitliyini necə təmin etmək olar?
- monitorinqin həyata keçirilməsinə və nəticələrin əldə olunmasına sərf edilən xərclər baxımından monitorinq prosesinin effektivliyini necə qiymətləndirmək olar?

Beləliklə, metodologiya nöqteyi-nəzərdən regionun sosial sferasının investisiya təminatı sisteminin fəaliyyət göstərməsi monitorinqinin təşkilediciliyinə dair irəli sürülən tələblər sistemin effektivliyinin təmin edilməsi məqsədilə aşağıdakı kimi olmalıdır:

1) proaktiv, yəni artıq baş vermiş pozuntuların aradan qaldırılması zamanı deyil, problemlərin meydana gəlməsindən əvvəl onların qarşısını almağa imkan verməlidir;

2) çoxhalqalı və çoxsəviyyəli, o cümlədən aşağıdakı qruplar daxil olmaqla:

- regionun sosial sferasına təsir göstərən amillər, bu zaman regionun sosial sferasının qruplarında daxili və xarici amillərin “siqnal” və “gurultulu” tərkib hissələrinin nisbətinin dəyişməsinə innovativ amillərin altqruplarının təsirini müəyyənləşdirməklə;
- regionun sosial sferasının ictimai sifarişləri; bu zaman yatırılan investisiyaların fəaliyyətinin faktiki nəticələri və bazar gözləntiləri arasında mövcud olan uyğunsuzluqların azaldılmasına son nəticədə təsirini müəyyənləşdirməklə;
- regionun sosial sferası modelinin parametrləri, bu zaman regionun sosial sferası sisteminin parametrlərinin təkmilləşdirilməsinə yönəlmiş innovasiyalara investisiyaların təsirini qiymətləndirməklə;
- regionun sosial sferasının investisiya təminatı, bu zaman regionun sosial sferası sifarişlərinin həcminin artırılmasına yönəlmiş innovasiyalara investisiyaların təsirini qiymətləndirməklə;

3) bazara səmtləşən monitorinqin ən mühüm məqsədlərindən biri – regionun sosial sferanın fəaliyyətinin faktiki nəticələrinin baza gözləntilərinə (cəmiyyətin tələbatlarına) müvafiqliyidir;

4) alətlərə səmtləşməyən. Onların seçimi monitorinqin biznes-proseslərinə qarşı irəli sürülən tələblər əsasında yerinə yetirilməlidir və ikincidərəcəli kimi dəyərləndirilir;

5) biznesə səmtləşən monitorinqin başlıca məqsədi – sosial sferanın gəlirlərinin və sifarişlər həcminin artırılmasına yönəlmiş innovasiyalara investisiyaların təsirinin qiymədləndirilməsidir.

Regionun sosial sferasının investisiya təminatı sisteminin fəaliyyətinin optimallaşdırılması prosesləri şək. 3-də nümayiş olunur.




**Şək. 3.** Regionun sosial sferasının investisiya təminatı sisteminin fəaliyyətinin optimallaşdırılması prosesləri

Regionların sosial sferasına investisiyaların cəlb edilməsi istiqamətində tətbiq edilə biləcək səmərəli modelin qurulması ilə bağlı olan problemlərə nəzər salarkən formalaşmaqda olan sosial bazar iqtisadiyyatının rolunu həm də sosial sferaya daxil sahələrin idarə edilməsi zamanı nəzərə almamaq mümkün deyil. Bununla əlaqədar qeyd etməliyik ki, müxtəlif səviyyəli idarəetmə orqanlarının rolu və funksiyaları, habelə onların büdcələrinin ölçüləri müxtəlif ölkələrdə dövlət idarəçiliyi sisteminin konkret strukturu, idarəetmə səviyyələri arasında hakimiyyət səlahiyyətlərinin formalaşmış bölgüsü, eləcə də ölkədə mövcud olan mədəniyyət ənənələri ilə müəyyən edilir. Ancaq ümumi cəhət bundan ibarətdir ki, hökumət strukturları sosial sferanın inkişafına yönəlmiş maliyyə vəsaitlərinin yalnız idarə olunmasını həyata keçirir, sosial sferaya daxil olan təsərrüfat subyektlərinin fəaliyyətinin idarəçiliyini isə reallaşdırmırlar.

**Nəticə**

Regionun sosial sferasının investisiya təminatı sisteminin formalaşdırılması və inkişafı sosial və iqtisadi inkişafın mühüm komponentlərindəndir. Bu məqalədə regionların sosial sahəsinə investisiya cəlb edilməsi üçün yeni metodologiyalar və modellər araşdırılmış və təhlil olunmuşdur. Hesablamaların nəticəsi göstərir ki, sosial sferada investisiyaların effektiv idarə olunması üçün kompleks və elmi yanaşma tələb olunur.

Məqalədə regionun sosial sferasının investisiya təminatı sisteminin parametrik və dinamik modelləri işlənib hazırlanmış, həmçinin bu sistemin fəaliyyətinin monitorinqi və optimallaşdırılması üçün çoxsəviyyəli yanaşma təqdim olunmuşdur. Yanaşma əsasında aparılmış təhlillər göstərir ki, sosial sahəyə yatırılan investisiyaların səmərəliliyi daxili və xarici iqtisadi amillərlə yanaşı, innovasiya amillərinin tətbiqindən də asılıdır.

Təhlil və hesablamaların xülasələşdirərək belə bir qənaətə gəlmək olar ki, regionların sosial sferasının inkişafına yönəlmiş investisiya siyasətinin səmərəli həyata keçirilməsi üçün dövlət və özəl sektor arasında əməkdaşlıq, eləcə də innovativ mexanizmlərin tətbiqi vacibdir. Bu istiqamətdə aparılan islahatlar və yeni metodların tətbiqi sosial rifahın yüksəldilməsinə və dayanıqlı inkişafa mühüm töhfə verə bilər.

Tədqiqatın nəticə olaraq aşağıdakı siyasət təklifləri irəli sürülmüşdür:

- Regionların sosial sferasına investisiyaların artırılması üçün dövlət tərəfindən daha səmərəli tənzimləmə mexanizmləri və güzəştli kredit imkanlarının yaradılması;
- Vergi güzəştləri və subsidiyalar vasitəsilə investorların bu sahəyə təşviq olunması;

- Özəl sektorun sosial sahəyə daha aktiv cəlb edilməsi üçün yeni əməkdaşlıq modelləri işlənib hazırlanması;
- Dövlət və özəl müəssisələr arasında uzunmüddətli investisiya sazişlərinin bağlanmasının təşviqi ;
- Sosial sferaya yönəldilən investisiyaların effektivliyini artırmaq üçün rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsi;
- Ağıllı idarəetmə sistemləri və süni intellekt əsaslı monitorinq mexanizmlərinin istifadə-sinin tətbiqi və bununla da resurslardan daha səmərəli istifadəyə nail olunması;
- İnvestisiyaların effektivliyini təmin etmək üçün çoxsəviyyəli təhlilə əsaslanan daimi monitorinq sistemlərinin yaradılması;
- Regionların sosial inkişafına təsir edən amillərin mütəmadi olaraq qiymətləndirilməsi və nəticələr əsasında strategiyaların yenilənməsi.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Əliyev T.N., İsmayılov B.V. Aran iqtisadi rayonunda sahibkarlıq fəaliyyətinin təşkili: reallıqlar və innovativ inkişaf. Monoqrafiya. Bakı: Elm və bilik, 2018 , 224 s.
2. İlham Əliyev. İnkişaf – məqsədimizdir. Bakı: Azərnəşr, 2024, 392 s.
3. Mehdiyev R. İlham Əliyev: inkişaf məqsədimizdir. Bakı, 2018, 400 s.
4. Azərbaycan Respublikasında 2023–2026-cı illərdə Sosial Xidmətlərin İnkişafı üzrə Dövlət Proqramı, 28 avqust 2023
5. Azərbaycanda regionların 2019–2023-cu illərdə sosial iqtisadi inkişafı üzrə Dövlət Proqramı
6. Əlirzayev Ə.Q. Sosial-mədəni sahələrin iqtisadiyyatı: inkişaf və tənzimlənmə. Dərs vəsaiti. Bakı: "İqtisad universiteti" nəşriyyatı, 2016, 220 s.
7. Məmmədova S.D. Azərbaycanda sosial dövlət: inkişafı, perspektivləri. Bakı: Avropa, 2017, 232 s.
8. Osman Nuri Aras. Azerbaycan ekonomisi ve yatırım imkanları. Bakü, 2015, 395 s.
9. Doç. Dr. Osman Uluyol, Sermaye piyasalarında yatırım ve yatırımcılar, Ankara, 2021 , 254 s.
10. Джабиев Р.М. Социально-экономическое развитие Азербайджанской Республики, за годы независимости, Баку, 2015, 283 с.
11. Craig S. Maher, Bruce D. McDonald III, Steven C. Deller "Understanding Municipal Fiscal Health", Routledge, 2023, 350 p.
12. Alessandro Rizzello, Elisabetta Scognamiglio, "Evaluating Impact Investments: Frameworks and Applications for Social Ventures". Italy, 2021,461 p.
13. Helen Chiappini, Social Impact Funds, Rome, 2017, 168 p.
14. OECD, Social impact investment, USA, 2015, 190 p.
15. Keith A. Allman , İmpact investment, USA , 2015 , 304 p.
16. World economic and financial surveys, Fiscal Monitar, International monetary Fund, 2017, 114 p.
17. A guide to Social Return on Investment, The Office of the Third Sector (OTS), Society Media, 2009, 55 p.

# NEW METHODOLOGY FOR FORMING A SYSTEM OF GUARANTEEING INVESTMENTS IN THE SOCIAL SPHERE OF THE REGION

[1]**A.N.Eminov**, [2]**E.V.Abiyev**
[1]Doctor of Philosophy in Economics, Associate Professor
Mingachevir State University
[2]Azerbaijan Technical University

***Abstract:*** *The purpose of this article is to study a new methodology for the system of guaranteeing investments in the social sphere of regions. Here the authors emphasize that social investments are important for economic development and improving the well-being of the population. The article presents new and important models and methods for managing investments in the social sphere, in particular, a comprehensive analysis of the construction of parametric and dynamic models. The article considers various nuances of the formation and development of the system of guaranteeing investments in the social sphere. It should be noted that the decisive role in this process is played by the economic policy of the state, macroeconomic indicators of development, the level of participation of the private sector. It should also be emphasized that the presented new methodological approaches for the systematic and targeted implementation of investments in the social sphere of regions are aimed at solving existing problems in this area. The main topics of the article are investment optimization, expansion of public-private cooperation and creation of monitoring systems. The study emphasizes the importance of innovative approaches and strategic management methods for the effective implementation of social investment policies. It shows that government support, tax incentives and the use of digital technologies can play an important role in this process. The article concludes with specific recommendations for increasing and improving the effectiveness of investments aimed at social development of regions.*
***Keywords:*** *region, social sphere, investment guarantee system, parametric model*

# НОВАЯ МЕТОДОЛОГИЯ ФОРМИРОВАНИЯ СИСТЕМЫ ГАРАНТИРОВАНИЯ ИНВЕСТИЦИЙ СОЦИАЛЬНОЙ СФЕРЫ РЕГИОНА

[1]**А.Н.Эминов**, [2]**Э.В.Абиев**
[1]доктор философии по экономике, доцент
Мингячевирский государственный университет
[2]Азербайджанский технический университет

***Резюме:*** *Целью данной статьи является исследование новой методологии системы гарантирования инвестиций социальной сферы регионов. Здесь авторы подчеркивают, что социальные инвестиции важны для экономического развития и повышения уровня благосостояния населения. В статье представлены новые и важные модели и методы управления инвестициями в социальную сферу, в частности, всесторонне проанализировано построение параметрических и динамических моделей. В статье рассмотрены различные нюансы формирования и развития системы гарантирования инвестиций социальной сферы. Следует отметить, что решающую роль в этом процессе играют экономическая политика государства, макроэкономические показатели развития, уровень участия частного сектора. Также следует подчеркнуть, что представленные новые методологические подходы для системного и целенаправленного осуществления инвестиций в социальную сферу регионов направлены на решение существующих проблем в этой области. Основными темами статьи являются оптимизация инвестиций, расширение государственно-частного сотрудничества и создание систем мониторинга. В результате исследования подчеркивается важность инновационных подходов и методов стратегического управления для эффективной реализации политики социальных инвестиций. В результате показано, что*

*государственная поддержка, налоговые льготы и применение цифровых технологий могут играть важную роль в этом процессе. В конце статьи представлены конкретные рекомендации по повышению и улучшению эффективности инвестиций, направленных на социальное развитие регионов.*

***Ключевые слова:*** *регион, социальная сфера, система гарантирования инвестиций, параметрическая модель*

**Elmi redaktor: i.e.d., prof. E.Sadıqov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 21.04.2025**
**Çapa qəbul edilib: 28.04.2025**